# Qarakənd faciəsi



***20 noyabr 1991-ci il** Azərbaycanın müstəqillik tarixinin ən faciəli səhifələrindən biridir. 30 il bundan əvvəl Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 hərbi helikopterinin Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Qazaxıstandan olan müşahidəçilər və heyət üzvləri həlak olublar. Həmin faciəli günün canlı şahidi kimi uzun illərdir ki, məni bir neçə sual narahat edib. Məsələn, nəyə görə Azərbaycanın dövlət rəsmiləri münaqişə zonasında bir helikopterə miniblər?! Həmin helikopteri niyə başqa hərbi helikopterlər müşayiət etməyiblər?! Halbuki, həmin vaxt Ağdam aeroportunda bir neçə helikopter olub.*

Faciənin mahiyyətinə varmaq üçün bir müddət əvvələ qayıtmaq lazımdır. Belə ki, 1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan SSR Ali Sovetinin iclasında respublikamızın dövlət müstəqilliyi elan olundu. Çökməkdə və dağılmaqda olan keçmiş sovet imperiyası müstəqilliyimizi və azadlığımızı çox böyük qısqanclıqla, həm də, qatı düşmənçiliklə qarşıladı, xalqımızın azadlıq və müstəqillik istəyini keçmiş Dağlıq Qarabağda məskunlaşmış erməni daşnakların, şovinistlərin və separatçıların əli ilə boğmağa çalışdı. Bu barədə faktlar çoxdur, onlardan yalnız birinə nəzər salmaq kifayətdir.

1991-ci ilin oktyabr ayında keçmiş DQMV-nin azərbaycanlılar yaşayan iki kəndi-İmarət Qərvənd(Kərəmli), Tuğ, bir müddət sonra isə Cəmilli, Meşəli və digər kəndlər erməni işğalına məruz qaldı. Açıq-aşkar Azərbaycan ərazilərində işğal siyasəti həyata keçirilirdi. Keçmiş SSRİ-nin prezidenti, əlləri dirsəyinə qədər xalqımızın qanına bulaşmış, ermənilərin əlində oyuncağa çevrilən Mixail Qorbaçov ölkədə baş verən qanuna zidd təxribat və terror hadisələrinə göz yumurdu.

Qeyd edək ki, həmin vaxt təkcə Ağdam rayonunda 6-7 xarici dövlətin kəşfiyyat xidmətinin əməkdaşları işləyirdi. Həmin əcnəbi dəstələr ermənilərlə birlikdə azərbaycanlıları bir-birinə qarşı qoyur, öz içimizdə saxta düşmən obrazı yaradırdılar. Diqqət edin, keçmiş Dağlıq Qarabağda 20 noyabr faciəsindən sonra 5 ay ərzində ermənilər yüzlərlə azərbaycanlı kəndini işğal ediblər, dinc insanlar öz dədə-baba yurdlarından qovulublar. Erməni vəhşiliyinə, insanların faciəsinə Moskva sükutla cavab verir və bundan istifadə edən ermənilər daha çox qətllər, terror hadisələri törədir, kəndlərimizi işğal edirdilər. İşğala məruz qalan kəndlərin əhalisi Ağdama pənah gətirir, ac-susuz, yaralı və döyülmüş soydaşlarımız erməni vəhşiliyindən danışırdılar. Məhz həmin vaxtlarda xəbər gəldi ki, erməni daşnak dəstələri Xocavənd rayonunun Qaradağlı kəndinə hücum edib, çox sayda azərbaycanlı qətlə yetirilib, onlarla yaralı var, bir çox insan əsir götürülüb. Buna görə də Azərbaycanın dövlət və hökumət nümayəndələri Ağdama gəldilər. Həmin vaxt Azərbaycanın dövlət katibi Tofiq İsmayılovun rəhbərliyi ilə böyük bir nümayəndə heyəti keçmiş icraiyyə komitəsinin binasının iclas zalında keçmiş Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərindən, o cümlədən, Qaradağlıdan gələn əhali ilə görüş keçirdi.

Keçmiş sovet hərbiçilərinin iştirakı ilə keçirilən iclasda azərbaycanlılar qətiyyətlə bildirdilər ki, sovet(rus) ordusu yalnız erməniləri müdafiə edir, onların törətdikləri terror hadisələrinə göz yumur. İclasda keçmiş Dağlıq Qarabağın komendantı İvan Jinkin də iştirak edirdi. Həmin iclasda qərara alındı ki, Azərbaycanın dövlət və hökumət nümayəndələri Qaradağlı kəndinə getsin və vəziyyəti öz gözləri ilə görsünlər. Halbuki, keçmiş sovet imperiyası Qarabağda fövqəladə vəziyyət elan etmişdi, buna baxmayaraq ermənilər bölgədə çox böyük təhlükə mənbəyi olsalar da, onlara aşıq- aşkar himayədarlıq olunurdu. Bir sözlə, Qarabağ erməni-rus işğalı ilə üz-üzə qalmışdı və onlar az sonra işğala nail oldular.

Yuxarıda qeyd etdiyimiz həmin Mİ-8 helikopteri Qarakənd səmasında öz sərnişinləri ilə birlikdə şəhid oldu. Qəhrəman Azərbaycanın mərd oğulları ermənilərin törətdikləri beynəlxalq miqyaslı terrorun qurbanı oldular.

Təəssüf ki, dünyanın taleyini müəyyən edən, haqqdan və demokratiyadan dəm vuran, başqa xalqlara dərs keçmək həvəsində olan dövlətlər həmin dövrdə Azərbaycan xalqının başına gətirilən müsibətlərə və faciələrə göz yumdular. Nəhayət, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri, Qalib Ali Baş Komandan İlham Əliyev bütün dünyaya sübut etdi ki, Ermənistanın işğalı altında qalan torpaqlarımızı azad etməyə, haqq və ədaləti bərpa etməyə qadirik. Şəhidlərimizin qisası döyüş meydanında alındı, qarı düşmən məğlub edildi. Azərbaycanın dövlət müstəqilliyi əbədi və dönməzdir!

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2021.-20 noyabr.- S.15.